13 OKTYABR

Mistik Qorxu Hekayəsi

MÜƏLLIF: XƏLILLI İBRAHIM

13 OKTYABR

Müəllif: Xəlilli İbrahim

---

19 yaşlı Emin təhsil almaq üçün Gəncə şəhərindən Bakıya köçmüşdü. Ailəsindən uzaqda keçirdiyi ilk ay idi. Yeni ev köhnə olsa da, sakit görünürdü. İlk həftələr hər şey normal keçdi.

Ta ki... 13 oktyabr gecəsinə qədər.

Saat 22:09 idi.

Emin dərslərdən yorulmuşdu. Darıxdığı üçün dostu Fəridə zəng etdi. Təxminən bir saat yarım söhbət etdilər. Zəng bitəndə saat 23:30 idi. Otaqda qəribə bir sakitlik vardı. Emin işığı söndürüb yatağa uzandı. Tam gözlərini yummaq istəyirdi ki...

"Tık..."

Səs tavandan gəldi. Bir neçə saniyə keçdi. Yenə... "Tık..." Bu dəfə daha yaxın.

Evin içi o qədər səssiz idi ki, Emin öz ürək döyüntüsünü eşidirdi. Telefonunun fənərini yandırdı. Yavaş addımlarla otağın ortasına gəldi. İşığı tavana tutdu. Heç nə yox idi. Elə geri

dönəcəkdi ki... Çardaq qapısı öz-özünə yavaş-yavaş açılmağa başladı.

Cırııqq...

Səs otağın içində uzun-uzadı əks-səda verdi. Qapının arxasında yalnız qaranlıq görünürdü. Birdən qaranlığın içində iki solğun göz açıldı. Sonra uzun, arıq barmaqlar çardaq qapısının kənarından yapışdı. Ardınca saçı-başı dağınıq, üzü bəyaz, nimdaş paltarlı yaşlı bir qadın asta-asta aşağı əyildi. O, heç tərpənmədən Eminə baxırdı.

Emin qorxusunu udub pıçıldadı: "— Kimsiniz?..."

Cavab gəlmədi. Birdən qadının başı qeyri-təbii şəkildə yana əyildi. Sonra dodaqları yavaş-yavaş açıldı. Qulağı deşən xırıltılı səslə dedi: "Bu evdəki hər şey... hətta sən belə... mənə aidsən..."

Telefon Eminin əlindən düşdü. İşıq söndü. Otağı tam qaranlıq bürüdü. Və həmin an... Tak... Tak... Tak... Səslər yaxınlaşırdı. Emin nəfəsini saxladı. Birdən qulağının düz yanında çox zəif bir pıçıltı eşidildi: "...Arxana baxma..."

Emin donub qaldı. Çiyninə buz kimi soyuq bir əlin toxunduğunu hiss etdi. Bədəni keyidi. "Artıq gecdir..." Emin bütün gücü ilə qışqırdı... və gözlərini açdı.

Saatın zəngi çalırdı. Səhər olmuşdu. Emin dərindən nəfəs aldı: "Yuxu idi..." Amma ayağa qalxmaq istəyəndə gözü yerə sataşdı. Telefonu otağın ortasında sınmış vəziyyətdə idi. Pəncərənin şüşəsi çatlamışdı. Ən dəhşətlisi isə... Çardaq qapısı açıq idi. Və pilləkənin ilk taxtasında tozun içində təzə ayaq izləri görünürdü.

* * *

Emin qorxu içində evi boşaltdı. Başqa məhəlləyə köçdü. Hər şey yenidən normal görünürdü. Aradan aylar keçdi. Bir gecə yeni evində kitab oxuyarkən tavandan tanış bir səs gəldi: "Tık..."

Emin donub tavana baxdı. Bu evdə çardaq yox idi! Elə bu an telefonu titrədi. Gizli nömrədən bir mesaj gəlmişdi:

> ***"Mən demişdim... sən artıq mənə aidsən."***

Eminin ürəyi dəli kimi vurmağa başladı. Əlləri titrəyə-titrəyə həmin gizli nömrəyə zəng etdi. Telefon cəmi bir dəfə zəng çaldı və açıldı. Qarşı tərəfdən heç bir səs gəlmirdi. Yalnız ağır, xırıltılı nəfəs səsi eşidilirdi.

> ***— Kimsiniz?! Məndən nə istəyirsiniz?! — Emin qışqırdı.***

Bir neçə saniyəlik sükutdan sonra telefondan köhnə ev sahibinin titrəyən, qorxmuş səsi gəldi:

> ***— Emin… sənəsən? Şükür ALLAHA ki, zəng etdin… Mən o evi yandırdım, Emin. Anamın ruhu rahatlaşsın deyə hər şeyi kül etdim…***

> ***— Bəs onda mənə bu mesajı kim yazır?! — Eminin səsi titrədi.***

Ev sahibi qəfildən ağlamağa başladı:

> ***— Bilmirəm… Amma yanğın bitəndən sonra polislər içərini yoxladılar. Küllərin arasından anamın otağındakı köhnə güzgünü tapıblar. Şüşəsi qırılmamışdı. Amma polislər dedilər ki… güzgünün üstündə, hisin içində təzə dırnaq izləri ilə bir ad qazılıb. Sənin adın, Emin… O, səni buraxmayıb.***

Ev sahibinin səsi qəfildən kəsildi. Xətt qopdu. Eyni anda Eminin oturduğu otağın bütün işıqları parıldayıb söndü. Ev tamamilə zülmətə qərq oldu. Soyuq bir külək otağın daxilində əsməyə başladı, halbuki bütün pəncərələr qapalı idi.

Cırıqq…

Emin arxaya boylandı. Yeni mənzilinin divarında, heç vaxt olmayan köhnə, taxta bir çardaq qapısı peyda olmuşdu və yavaş-yavaş açılırdı. Qaranlığın içindən o tanış, ağ bəyaz üzlü qadın aşağı boylandı. Bu dəfə o gülümsəyirdi. Onun dırnaqları qan içində idi.

Emin qaçmaq üçün qapıya tərəf atıldı, amma ayaqları yerə yapışmışdı, hərəkət edə bilmirdi. Qadın çardaqdan süzülüb bir göz qırpımında Eminin tam qarşısında peyda oldu. Buz kimi soyuq, qanlı əllərini Eminin boğazına doladı. Emin nəfəs ala bilmirdi, gözləri qaralırdı. Qadın son dəfə onun qulağına pıçıldadı:

> ***"İndi isə... tamamilə mənimləsən."***

Ertəsi gün Gəncədəki ailəsi Eminə zəng çatmadığı üçün polisə xəbər verdi. Polislər evə girəndə Emini yatağında tapdılar. Həkimlər onun qorxudan ürəyinin partladığını dedilər. Amma ən qəribəsi o idi ki, Eminin cansız bədəninin düz yanında, yerdə qırılmış telefonunun ekranında yanıb sönən naməlum bir mesaj var idi: "13 Oktyabr tamamlandı."

SON